# İlham ƏLİYEV: "Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun"



## Azərbaycan Ordusu qələbə əzmindədir

### Cəbhədə ermənilərin törətdikləri təxribatlar Ermənistanın mütləq məğlubiyyətini daha da tezləşdirir

Ermənistan Dağlıq Qarabağ münaqişəsinin nizamlanma prosesində, həmçinin beynəlxalq arenada siyasi uğursuzluqlarını ört-basdır etmək üçün növbəti dəfə silahlı təxribata əl ataraq mülki obyektlərimizi və dinc vətəndaşlarımızı hədəfə aldı. Azərbaycan Ordusu 12 hərbçisini itirdi. Lakin rəsmi Yerevanın budəfəki cəhdi ona baha başa gəldi. Azərbaycan Ordusu sarsıdıcı zərbə vurdu.

Təmas xəttində ağır məğlubiyyət alan düşmən dərhal beynəlxalq təşkilatların qapısını döyərək ənənəvi "əzabkeş" obrazına girdi. Döyüşlər barədə saxta məlumatlar yaymaqla dünya ictimaiyyətini aldatmağa başladı. Reallıq isə başqadır: döyüşlər işğal edilmiş Azərbaycan torpaqlarında gedir, bu isə o deməkdir ki, bundan əziyyət çəkən bizim xalqdır.

Ekspertlər və siyasətçilər də hesab edirlər ki, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində status-kvonu saxlamaqda maraqlı olan Ermənistanın növbəti silahlı təxribatına Cənubi Qafqazın ən böyük ordusu olan Azərbaycan Ordusu layiqli cavab verdi. Ordumuz mülki insanları qorumaq üçün əks-hücuma keçərək bir neçə strateji yüksəkliyi və yaşayış məntəqəsini işğaldan azad etdi.











### Ziyafət ƏSGƏROV: "Ermənistan Azərbaycan qarşısında diz çökəcək"

Cəbhə xəttində baş verən hadisələrə münasibət bildirən Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri **Ziyafət Əsgərov** dedi ki, baş verənlər Ermənistan hakimiyyətinin növbəti təxribatıdır: "Bu gün dünyada Azərbaycanın nüfuzu artır. Azərbaycan Prezidenti İlham Əliyev dünya liderləri tərəfindən qəbul edilir, ölkəmizin güclənməsi üçün siyasi addımlar atılır. Azərbaycan beynəlxalq sammitlərə, forumlara dəvət alan ölkədir. Həmişə ya Azərbaycanda, yaxud digər ölkələrdə beynəlxalq tədbirlər keçirilən zaman Ermənistan cəbhədə təxribata əl atır.

Hesab edirəm ki, cəbhədəki təxribatların digər səbəbi Ermənistandakı hakimiyyətin öz ictimaiyyətinin diqqətini daxili problemlərdən yayındırmaqdır. Amma Ermənistan bir şeyi anlamalıdır ki, Azərbaycanın nüfuzunun artması, ordumuzun qüdrətlənməsi, iqtisadiyyatımızın möhkəmlənməsi onun məğlubiyyətini daha da tezləşdirəcək. Bu gün Ermənistan rəhbərliyi təşviş içindədir. Məhz buna görə onlar cəbhədə təxribata əl atırlar. Əslində, bu təxribatlar Ermənistanın özünə ziyandır və onun mütləq məğlubiyyətini daha da tezləşdirir. Əminəm ki, Ermənistan Azərbaycanın qarşısında diz çökəcək".

### Siyavuş NOVRUZOV: "Kənar qüvvələr olmasa, münaqişə bir həftə ərzində həllini tapar"

Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri **Siyavuş Novruzov** hərbçilərimizin bu döyüşlərdə qəhrəmanlıq göstərdiyini bildirib: "Allah şəhidlərimizə rəhmət eləsin. Onlar qəhrəmancasına öz canlarını fəda ediblər. Əsgərlərimiz düşmənə layiqli cavab veriblər. Düşmənin xeyli itkisi olub. Son günlər cəbhədə baş verən hadisələr bir daha sübut etdi ki, Azərbaycan Ordusu Qafqazın ən güclü ordularından biridir. Azərbaycan Ordusu Qafqazda həm peşəkarlıq, həm texniki, həm də hazırlıq baxımından da çox yüksək səviyyədədir. Bunu xüsusi qeyd edirik ki, digər qüvvələr olmasa, Azərbaycanla Ermənistan arasında olan münaqişə bir həftə ərzində həllini tapar".

Siyavuş Novruzov vurğulayıb ki, bütün ölkə vətəndaşları bu döyüşlərdə Azərbaycan Ordusunun qüdrətinin şahidi oldu: "Biz hər birimiz əsgərik, Vətənimiz, xalqımız və torpağımızın azad olunması uğrunda döyüşməyə hazırıq. Ordumuzdakı itkilər bizi ağrıdır, bununla yanaşı, Azərbaycan Ordusunun bu cür hazırlıqlı olmasını, düşmənə layiqli cavab verməsini yüksək qiymətləndiririk".

### Səməd SEYİDOV: "Bu, birbaşa Ermənistanın təxribatıdır"

"Cəbhədə gərginliyin yaradılması birbaşa Ermənistanın təxribatıdır". Bunu mətbuata açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri **Səməd Seyidov** deyib.

Komitə sədrinin fikrincə, bir müddət əvvəl Bakıda Avropa İttifaqının vitse-prezidentləri və 12 naziri ilə Azərbaycanın enerji layihələrinin imzalanması ilə bağlı görüşlər Ermənistanda ciddi narahatlıqlar yaradıb: "Bununla yanaşı, Azərbaycan Prezidentinin daxili siyasət, vətəndaş cəmiyyəti ilə bağlı atdığı addımlar, fərmanlar, gördüyü işlər, ABŞ-da keçirilən Nüvə Təhlükəsizliyi Sammitində ABŞ rəhbərliyi ilə mühüm biznes strukturları ilə danışıqlar aparması, onların dilindən birbaşa Azərbaycanın önəmli strateji əhəmiyyət daşıyan ölkə kimi göstərilməsi, ümumiyyətlə, respublikamızın regionda böyük nüfuza və çəkiyə sahib olması Ermənistanı narahat edib. Azərbaycanın bu cür söz sahibi olması Ermənistan ictimaiyyətinin öz ölkəsinin rəhbərliyindən olan narazılığını daha da artırıb. Bundan vahiməyə düşən ermənilər təxribatlar törətməklə əsas diqqəti iqtisadi inkişafdan hərbi münaqişəyə çevirməyə cəhd edirlər".

S.Seyidov onu da qeyd etdi ki, ermənilər özləri atəş açıb təxribat törədərək beynəlxalq strukturlara, Rusiya KİV-nə, sosial şəbəkələrə kadrlar ötürürlər: "Əslində isə tamamilə yalan və böhtan içərisində olan materiallardır. Hazırda biz bu materialları yığırıq. Onlar mərmilərlə, ağır silahlı texnikalarla atəş açıb bizim sakinləri öldürürlər, yaralayırlar. Bunlar toplanılıb Avropa Şurasına da təqdim olunmalıdır".

### Bəxtiyar ƏLİYEV: "Ermənistan sülh istəmir"

Milli Məclisdə Ağdam seçicilərini təmsil edən Elm və təhsil komitəsinin sədr müavini **Bəxtiyar Əliyev** bildirdi ki, bu gün Ermənistan işğalçılıq siyasətini davam etdirir və daim təxribatlara əl atır. Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a səfəri zamanı sülh danışıqlarının BMT-nin məlum 4 qətnaməsinə uyğun həyata keçirilməsini söylədiyi bir zamanda işğalçı Ermənistan növbəti təxribata əl atdı: "Ermənistan ordusu cəbhəyanı ərazilərimizə raket zərbələri endirərək əhalini təşvişə salmaq istədi. Dinc əhali arasında ölən və yaralananlar oldu. Ancaq yenə də təxribatın qarşısı alındı və Azərbaycan Ordusu düşmənə layiqincə cavab verdi".

Deputat daha sonra dedi ki, ağır zərbə alan Ermənistan silahlı birləşmələri yenə təxribatlar törədirlər. Azərbaycan Ordusu onlara layiqli cavab verir və verəcək də. Çünki mətbuat səhifələrində Ermənistanın Dağlıq Qarabağa raket kompleksləri göndərdiyi barədə məlumatlar yayılır. Bu isə bir daha onu göstərdi ki, Ermənistan sülh istəmir, danışıqlar masası arxasında oturmaq fikri yoxdur. Buna baxmayaraq qüdrətli Azərbaycan Ordusu beynəlxalq hüquq normalarına uyğun olaraq öz ərazilərini terrorçulardan, işğalçılardan təmizləyərək əhalisinin təhlükəsizliyini təmin edəcək və Azərbaycan Ordusu bu vəzifəsinin öhdəsindən uğurla gəlir.

### Elman MƏMMƏDOV: "Ermənistan ordusu təşviş içərisindədir"

Milli Məclisdə Şuşa, Ağdam, Xocalı, Xocavənd seçicilərini təmsil edən deputat **Elman Məmmədov** dedi ki, ermənilərin təxribatı ətraf rayonlarda yaşayan insanları çox narahat edib: "Aprelin 3-də Ağdamda idik. Cəbhənin Füzuli istiqamətində erməni hərbi birləşmələrinin təxribatının qarşısını alarkən şəhid olan Xocalı şəhərindən məcburi köçkün, Ağdam rayonunun Ballar kəndində məskunlaşmış Sarvan Mehralıyevin dəfn mərasimində iştirak etdim. Bütün cəbhə boyu və digər rayonlardan olan neçə-neçə insan da ora toplaşmışdı. Yüzlərlə Qarabağ qazisi döyüşə atılmaq istəyir. Onlar hər an Ali Baş Komandanın hücum əmrini gözləyir. Əksər məntəqələrdə də əhalinin əhval-ruhiyyəsinin yüksək olduğunu gördük. Hamı qüdrətli ordumuza güvənir. Ancaq onu da deyim ki, erməni silahlı qüvvələri daha çox mülki əhalinin yaşadığı ərazilərə mərmilər atıblar".

Bütün bunlara baxmayaraq Azərbaycan Ordusu torpaqlarımız uğrunda mübarizə apardığı üçün xalqda böyük ruh yüksəkliyi var. Ermənistan ordusu təşviş içərisindədir. Düşmənin mühüm atəş nöqtələri məhv edilib. Yüzlərlə itkiləri var: "Azərbaycan əsgəri öz torpağı uğrunda döyüşür və dövlət başçısının da dediyi kimi, əgər erməni hərbçisi ölmək istəmirsə, Azərbaycan torpağından rədd olub getsin. Çünki bura onun öz torpağı deyil". E.Məmmədov onu da vurğuladı ki, Azərbaycan münaqişənin sülh yolu ilə həll edilməsinin tərəfdarıdır. Ancaq Ermənistan cəbhədə təxribatlar törətməklə Azərbaycanı müharibəyə təhrik edir. Azərbaycan Ordusu separatçı erməni silahlı birləşmələrinə qarşı antiterror əməliyyatları keçirir".

Azərbaycan dövləti öz ordusu ilə düşmənə vurduğu ağır zərbə ilə tək Ermənistana yox, işğalçını müdafiə edənlərin havadarlarına, eyni zamanda, fəaliyyətləri ilə işğalçıya dəstək verən qüvvələrə sübut etdi ki, əgər sizlər ikili standartlar prinsipi ilə bu məsələyə yanaşıb Ermənistana yardım etməsəniz, Azərbaycan Ordusu bir neçə gün ərzində İrəvanı da ermənilərdən azad etməyə qadirdir. Bu, iki gün ərzində tam sübut olundu. Ermənistanı müdafiə edənlər son iki gündə çox narahat olublar. Ona görə də beynəlxalq qurumlar, dünya dövlətləri işğal edilmiş Azərbaycan torpaqlarından ermənilərin çıxarılmasını təmin etməlidir: "Əks halda, ordumuz işğalçı düşməni öz ərazilərimizdən çıxarmaq üçün tədbirlər görəcək. Azərbaycan xalqı, ordusu bu gün qələbə əzmindədir".

*Bütün bu deyilənlərdən də aydın olur ki, Azərbaycan Ordusu bu gün işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etməyə qadirdir. Ancaq dövlətimiz ilk növbədə, münaqişənin sülh yolu ilə həllinin tərəfdarıdır. Necə ki, erməni təxribatından sonra Azərbaycan Silahlı Qüvvələri beynəlxalq qurumların müraciətlərini də nəzərə alaraq işğal olunmuş ərazilərimizdə düşmənə qarşı əks-həmlə əməliyyatını və cavab tədbirlərini birtərəfli qaydada dayandırdı. Bu addım bir daha Azərbaycanın sülhsevər dövlət olduğunun göstəricisidir.*

*Əsas odur ki, bu qərar Ermənistanın vəziyyəti real qiymətləndirməsi üçün sonuncu şansdır. Azərbaycan Ordusu qoşunların təmas xəttində düşmənə çox ağır və unudulmaz dərs verdi. Ermənistanın bundan hansı nəticə çıxaracağını isə zaman göstərəcək.*

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***